AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTU

# AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

***Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə***

*həsr olunmuş*

ELMİ SESSİYANIN

# TEZİSLƏRİ

BAKI
*14-15 May 2025-ci il*

Məsul redaktor: **F.E.Quliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Z.H. Həsənov**
*tarix elmləri doktoru*

**E.A.Bəkirova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**B.İ.İbrahimli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**P.P.Qasımov**
*tarix üzrə fəlsəfə doktoru*

**T.R.Əliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**M.M.Hüseynov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR.**
*Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş elmi sessiyanın tezisləri.*
Bakı: 2025,– 144 s.

**ISBN** 978-9952-598-04-9

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 115
Tel.: +994 (12) 510 84 19
www.arxeologiya.az

© AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2025

# İÇİNDƏKİLƏR

## ARXEOLOGİYA

### DAŞ DÖVRÜ

**Azad Zeynalov, Yoshihiro Nishiaki, Yaqub Məmmədov, Ülviyyə Səfərova, Pərivəs Babai.**
*2024-cü ildə Azərbaycan-Yaponiya birgə paleolit arxeoloji ekspedisiyasının Tağlar mağarasında apardığı çöl-tədqiqat işlərinin nəticələrinə dair* ........ 10

**Azad Zeynalov, Pərivəs Babai.**
*Naxçıvan Muxtar Respublikasında 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar* ........ 13

**Yaqub Məmmədov, Azad Zeynalov, Mansur Mansurov, Musa Mursaquliyev, Səadət Əliyeva.**
*"Qazax paleolit arxeoloji ekspedisiyası"nın 2024-cü ildə Qazax və Ağstafa rayonları ərazisində apardığı kəşfiyyat işlərinin nəticələrinə dair* ........ 17

**Əjdər Babazadə, Joao Marreiros, Vüsal Həsənov, Şahin Səlimbəyov, Aslan Qasımov, Cavid Bayramov, Günel Nəbisoy.**
*Azıx Beynəlxalq Paleolit arxeoloji ekspedisiyasının 2024-cü ildə apardığı arxeoloji tədqiqatlar haqqında* ........ 20

### NEOLİT

**Xəqani Alməmmədov, Mircavid Ağalarov, Karolina Hruby, Nihad Məmmədli, Fərrux Ələsgərov, Xanım Həsənli.**
*Yüzbaşılı neolit dövrü yaşayış məskənində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar* ........ 22

**Vəfa Mahmudova.**
*Paşatəpədə 2024-cü il qazıntılarının nəticəsi haqqında* ........ 25

**Nəcəf Müseyibli, Anar Ağalarzadə, Gülnarə Axundova, Mətanət Hüseynova.**
*Çağrıtəpədə 2024-cü ildə aparılmış arxeoloji qazıntılar* ........ 27

Azad Zeynalov, Yoshihiro Nishiaki,
Yaqub Məmmədov, Ülviyyə Səfərova,
Pərivəs Babai

# 2024-CÜ İLDƏ AZƏRBAYCAN-YAPONİYA BİRGƏ PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ TAĞLAR MAĞARASINDA APARDIĞI ÇÖL-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNƏ DAİR

2024-cü il avqust ayının 1-dən 30-dək Beynəlxalq Azərbaycan-Yaponiya paleolit arxeoloji ekspedisiyası Tağlar mağarasında arxeoloji qazıntı işləri aparmışdır.

Tağlar paleolit düşərgəsi 1960-cı ildə M.Hüseynovun rəhbərliyi altında aparılan arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmışdır. Abidə, Xocavənd rayonu ərazisində, Füzuli-Şuşa zəfər yolunun 21-ci km-də, Böyük Tağlar kəndindən 2 km cənubda, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 712 m və Quruçay çayın müasir yatağından 30 metr yüksəklikdə yerləşir. Tağlar paleolit düşərgəsində 1964-1986-cı illərdə fasilələrlə M.Hüseynovun rəhbərliyi ilə arxeoloji qazıntı işləri aparılmış və 72 $m^2$ sahə tədqiq olunmuşdur.

Mağara, eni 50 m şərqdən qərbə və 25 m şimal-cənub istiqamətində maksimum hündürlüyü 6 m olan altı kameradan ibarətdir. Mağara aralarında dar keçidlər olan üç karst boşluğundan (zaldan) ibarətdir. Onların dörd girişi var.

Tağlar düşərgəsində 1964-1986-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı düşərgənin 6 m-ə çatan çöküntülərindən 6 mədəni təbəqə qeydə alınaraq tədqiq olunmuşdur (IV təbəqə, iki IVa və IVb laya bölünmüşdür). Birinci təbəqədən orta əsrlər, tunc və eneolit dövrlərinə aid saxsı fraqmentləri aşkar olunmuşdur, digər təbəqələr isə mustye dövrünə aiddir. II-VI təbəqələrdə mustye mədəniyyətinə aid 9 mindən artıq daş məmulatı və 500 mindən artıq ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır və 17-dən artıq ocaq layları qeydə alınmışdır.

Mağarada aparılan kompleks tədqiqatlara əsasən ehtimal etmək olar ki, təbii sığınacaqda 90 min il ərzində (120 min il bundan əvvəl 35 min ilə qədər) məskunlaşma bir neçə mərhələdə baş vermişdir.

Cənubi Qafqazda Avropanın, Cənub-Qərbi Asiyanın və Orta Asiyanın kəsişməsində yerləşən Tağlar mağarası orta paleolit dövründə regionda baş verən mədəni və demoqrafik prosesləri anlamaq üçün mühüm abidədir. Buradan tapılmış orta paleolit dövrünə aid daş artefaktlar ehtimal ki, Tağların Cənub-Qərbi Asiya, xüsusən də Zaqros mustye mədəniyyəti ilə birbaşa əlaqəsini göstərir.

Tağlar mağarasında azərbaycanlı mütəxəsisilər tərəfindən son arxeoloji tədqiqatlar 1986-cı ildə aparılmışdır. Məlum olduğu kimi 30 ildən artıq bir müddətdə Qarabağ bölgəsi o cümlədən, Tağlar mağarası Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal dövründə Azıx mağarası ilə bərabər Tağlar mağarasında da qeyri-qanuni "qazıntılar" aparılmışdır.

Uzun fasilədən sonra AMEA Arxeologiya və Antropologiya İnstitutu və Tokio Universitetinin "Universitet Muzeyi" arasında əldə olunmuş razılaşmaya əsasən Tağlar mağarasında yenidən tədqiqatlar başlanmışdır.

Lakin qeyd etmək lazımdır ki, Azərbaycan-Yaponiya beynəlxalq ekspedisiyasının Tağlar mağarasına ilk (tanışlıq) səfəri 2023-cü ildə olmuşdur. Həmin il qismən təmizlik işləri aparılmış, yeni tədqiqat sahəsi müəyyənləşdirilmişdi və çöküntülərin OSL üsulu ilə mütləq yaşını müəyyən etmək üçün çöküntülərdən bir neçə nümunə də götürülmüşdür.

2024-cü ildə tədqiqat aparılan kameranın uzunluğu təqribən 10 m, eni 8 m idi. Mağaranın döşəməsindən hündürlüyü 5,5 m-ə qədər idi.

İşğal dövründə nəzarətsiz və mühafizəsiz qalmış abidənin bir divarı uçmuşdur. Bu il ilkin olaraq həmin 7 m uzunluğunda, 5 m hündürlüyündə olan şərq divarı tamamilə təmizlənmişdir və stratiqrafiya müəyyən olunmuşdur. Tədqiqatlar nəticəsində üç mindən artıq fauna qalığı, mindən artıq daş artefakt aşkar olunmuşdur. Xammal kimi əsasən çaxmaqdaşından istifadə olunmuşdur.

Məlum olduğu kimi, mağarada insanların yaşaması dövrü ilə bağlı bütün tarixlər arxeoloji materialların texnoloji-tipoloji təhlillər əsasında nisbi yaş kimi müəyyən olunmuşdur. Hazırkı tədqiqatlarda isə bunun üçün daha müasir texniki üsul olan OSL-dən istifadə olunmuşdur. Bu bizə daha dəqiq və mütləq xronologiyanı müəyyənləşdirməyə imkan verəcək.

1964-1986-cı illərdə mağaranın üçdə iki hissəsi qazılmışdı. 2023-cü ildə aparılan ilkin araşdırmalar göstərdi ki, mağaranın şərq divarı boyunca qazılmamış ilkin çöküntülər qalır.

İşğal dövründə nəzarətsiz və mühafizəsiz qalmış abidənin 7 m

uzunluğunda, 5 m hündürlüyündə və təxminən 1 metr qalınlığında şərq divarı (G/H5 - G/H12 kvadratları) çökərək mağaranın daxili hissəsini çöküntülərlə doldurmuşdu. Həmin sahədə mağaranın döşəməsi kəskin şəkildə aşağıya doğru mailidir. Bunları nəzərə alaraq, qazılmış və qazılmamış ərazilər arasındakı sərhədi müəyyən etmək üçün divar boyu xəndəkdən dağılmış çöküntülər çıxararaq ələndi.

Əldə edilən məlumatlar, Tağlar mağarasının paleolit dövrünə aid təbəqələrinin stratiqrafiyası haqqında ümumi təsəvvür yaratmağa imkan verdi. Qeyd etmək lazımdır ki, yeni tədqiqatlar nəticəsində müəyyən olunmuş stratiqrafiya 1964-1986-cı illərdə aparılmış tədqiqatların və müəyyən olunmuş stratiqrafiyanın düzgün və etibarlı olduğunu təsdiqlədi.

2024-cü ildə aparılan qazıntılar nəticəsində 1077 daş artefakt aşkar edilmişdir. Tapıntıların əsas hissəsi çökmüş çöküntülərin təmizlənməsi zamanı aşkar olunmuşdur və onların hansı təbəqəyə aid olduğunu müəyyən etmək mümkün deyil. Yalnız orta paleolit, yəni II-V təbəqələrə aid olduğunu deyə bilərik. Eyni zamanda, aşkar olunmuş daş məmulatları əvvəlki illərdəki kimi levallua lövhə istehsalının mövcudluğunu göstərdi.

Eyni zamanda, aşkar olunmuş daş alətlər tipoloji cəhəddən Tağlar mağarasının mustye kompleksinə xas olan ənənələri göstərir. Aşkar olunmuş alətlər arasında qaşovlar, itiuclular, qəlpə və lövhələr müəyyən olunmuşdur. Tapıntılar arasında pulcuqların qeydə alınması, ən azı alətlərin ikinci işlənməsi (fasetləşməsi) mağarada baş verdiyini göstərir.

Tağlar mağarasının daş sənayesinin təhlilinə kifayət qədər kitab və məqalələr çap olunub. Ona baxmayaraq bir sıra məsələlər sual altındadır və onlara aydınlıq gətirmək üçün yaxın beş ildə müasir texnologiyaların cəlb olunması ilə fənlərarası tədqiqatlar nəzərdə tutulur.

Onların sırasında unikal, qalınlığına görə analoqu olmayan çöküntülərdə daş sənayesinin inkişaf dinamikasını, dəyişikliyini müəyyən etmək, ikinci təbəqənin nə dərəcədə Üst Paleolitə aid olduğunu təsdiq və ya təkzib etmək olar. Ən vacibi isə təbəqələrin fərqli üsullar ilə mütləq yaşını müəyyən etməkdir.

II-VI təbəqələrdən çöküntülərin mütləq yaşını təyin etmək üçün nümunələr götürüldü. 2023-cü il mövsümü ərzində IV-VI təbəqələrin üstündən optik stimullaşdırılmış lüminisent (OSL) üçün çöküntüdən yeddi nümunə götürülmüşdür, hazırda onların təhlili davam edir. 2024-cü il mövsümü ərzində optik stimullaşdırılmış lüminisent (OSL) üsulu ilə mütləq yaşı müəyyən etmək üçün II təbəqədən III təbəqəyə qədər olan

laylardan beş və VI təbəqənin altından iki nümunə götürüldü. Eyni zamanda bu mövsüm ərzində II təbəqədən radiokarbon təyini üçün heyvan sümükləri götürüldü.

2024-cü ildə aparılan tədqiqatların əsas nəticələri:

1. İşğal dövründə nəzarətsiz və mühafizəsiz qalmış abidənin 7 m uzunluğunda, 5 m hündürlüyündə və təxminən 1 m qalınlığında şərq divarı çökərək mağaranın daxili hissəsini çöküntülərlə doldurmuşdu. Bu il ilk olaraq həmin şərq divarı tamamilə təmizlənmişdir və stratiqrafiya müəyyən olunmuşdur. Tədqiqatlar nəticəsində üç mindən artıq fauna qalığı, mindən artıq daş artefakt aşkar olunmuşdur. Xammal kimi, əsasən çaxmaqdaşından istifadə olunmuşdur.

2. Çökmüş torpaq təmizləndikdən sonra məlum oldu ki, mağaranın şərq divarı boyunca qazılmamış ilkin çöküntülər qalır. Bu isə Tağlar mağarasının Paleolit dövrünə aid təbəqələrinin stratiqrafiyası haqqında ümumi təsəvvür yaratmaqla bərabər, 1964-1986-cı illərdə aparılmış tədqiqatların və müəyyən olunmuş stratiqrafiyanın düzgün və etibarlı olduğunu təsdiqlədi.

3. 2024-cü il mövsümü ərzində optik stimullaşdırılmış lüminisent (OSL) üsulu ilə mütləq yaşı müəyyən etmək üçün II təbəqədən III təbəqəyə qədər olan laylardan beş və VI təbəqənin altından iki nümunə götürüldü. Eyni zamanda, bu mövsüm ərzində II təbəqədən radiokarbon təyini üçün heyvan sümükləri götürüldü. Hər bir nümunə yerində (*in situ*) götürülmüşdür. Nümunələr Tokio Universitetinin laboratoriyasında təhlil olunacaq.

Azad Zeynalov, Pərivəs Babai

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA 2024-CÜ İLDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR

Coğrafi mövqeyinə görə Azərbaycan ərazisi tarixdən əvvəlki dövrlərdə Afrikadan Avropaya erkən hominidlərin miqrasiyası yolunda əsas arteriyalardan biri olmuşdur. Təsadüfi deyil ki, Homo cinsinin erkən nümayəndələri tərəfindən Afrikadan kənarda yeni ərazilərin mənimsənməsinin ən qədim izləri Cənubi və Şimali Qafqazda aşkar edilmişdir.

Tarixdən əvvəlki dövrün öyrənilməsində Azərbaycanın region

# AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

*Azərbaycan Milli Elmlər Akademiyasının*
*80 illiyinə*
*həsr olunmuş*

ELMİ SESSİYANIN

# TEZİSLƏRİ

Bakı
*14-15 May 2025-ci il*

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Dizayner – Samirə QAMBAYEVA
Çap – Oktay YUSİFOV
Səhifələnmə – Günel ƏSƏDOVA
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com

Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 04.04.2025
Çapa imzalanmışdır: 08.05.2025
Qarnitura: Tahoma, Times New Roman
Şərti çap vərəqi: 9
Formatı: 70x100 1/16
Tiraj: 150